Son yenilənmə tarixi: **01.04.2019**

# MƏXFİLİK BƏYANNAMƏSİ

Hazırkı məxfilik bəyannaməsi "McDonald's Azərbaycan" MMC-in (bundan sonra "Şirkət" və ya "Biz", "Bizim", "Bizə" və s.) Azərbaycan Respublikasında müştərilərimizin fərdi məlumatlarının necə toplanıldığını, istifadə edildiyini, mühafizə olunduğunu və paylaşıldığını təsvir edir. Müştərilər dedikdə, restoranlarımızı ziyarət edən, vebsaytlarımızı və mobil proqramlarımızdan istifadə və başqa şəkildə bizimlə qarşılıqlı əlaqədə olan şəxslər nəzərdə tutulur.

Hazırkı giriş hissə Şirkətin müştəri (bundan sonra "Siz", "Sizin", "Sizə" və s.) məlumatlarını necə topladığını, istifadə, mühafizə olunduğunu və paylaşıldığını təsvir edir.
Sizin fərdi məlumatlarınız üzrə nəzarətçi fərdi məlumatlarınız toplanıldığı yurisdiksiyada müəssisəsidir, yani Şirkətdir. Nəzərə alın ki, digər ölkələrdə digər şəxs məlumat nəzarətçi qismində çıxış edə bilər. Fərdi məlumatlarınızın nəzarətçi ilə bağlı ətraflı məlumat üçün müvafiq ölkənin təqdim edildiyi sənədlərə müraciət edin.
Mövcud məxfilik bəyannaməsi üçün müvafiq ölkə üçün olan vebsayınta müraciət edin. Ölkələr üzrə vebsaytlarına buradan keçid edə bilərsiniz:
http://corporate.mcdonalds.com/content/corpmcd/about-us/around-the-world.html.

## 1. Topladığımız məlumatlar

Biz siz restoranlarımızı ziyarət edərkən, vebsaytlarımızdan və ya mobil proqramlardan ("onlayn xidmətlər") istifadə edərkən və digər şəkildə bizimlə qarşılıqlı əlaqə saxlayarlən (birlikdə "xidmətlər" adlanacaq) sizin fərdi məlumatlarınızı toplayırıq. Topladığımız məlumatlar üç kateqoriyaya bölünür: (a) bizə təqdim etdiyiniz məlumatlar; (b) avtomatlaşdırılmış metodlarla topladığımız məlumatlar; (c) digər mənbələrdən topladığımız məlumatlar.

Ümumimiyyətlə, siz fərdi məlumatlarınızı könüllü olaraq təqdim edirsiniz. Bununla belə, xidmətlər göstərmək üçün zəruri olduğu və ya qanunla tələb edildiyi hallarda fərdi məlumatlarınızı təqdim etməyinizi zəruri ola bilər. Nəzərə alın ki, müəyyən hallarda siz məlumatlarınızı təqdim etmədiyiniz halda, biz sizə xidmət göstərə bilmirik. Biz fərdi məlumatlarınızı təqdim etməyin zəruri olduğu hallar barədə sizi məlumatlandıracağıq.
Biz sizin təqdim etdiyiniz məlumatları, avtomatlaşdırılmış metodlarla toplanılmış məlumatlar və digər mənbələrdən aldığımız məlumatları birləşdirə bilərik.

*Biz təqdim etdiyiniz məlumatları toplayırıq*
Siz bizimlə necə qarşılıqlı əlaqə saxladığınızdan asılı olaraq bizə aşağıdakı məlumatları təqdim edə bilərsiniz:

- onlayn xidmətlərimiz üçün qeydiyyatdan keçərkən, Wi-Fi-ya qoşularkən, müsabiqələrimizdən birinə daxil olarkən və ya telefon və ya onlayn xidmətlərimiz vasitəsilə bizimlə əlaqə saxlayarkən adınız, poçt və e-poçt ünvanlarınız, telefon nömrəniz, doğum tarixiniz və digər əlaqə məlumatlarınız kimi fərdi məlumatlar;
- aldığınız məhsullar, qiymətlər, ödəniş üsulu və ödəniş məlumatları da daxil olmaqla köçürmə məlumatları;
- onlayn xidmətlərə daxil olmaq və ya məhsullarımızı və xidmətlərimizi almaq və ya istifadə etmək üçün istifadə edilən istifadəçi adı və ya şifrə (və ya sizin identifikasiya edən digər məlumatlar) kimi hesab məlumatları;
- sevdiyiniz məhsullar və xidmətlər və ya bizi ziyarət etməyi üstünlük verdiyiniz vaxtlar da daxil olmaqla profil məlumatları;

- bizimlə qarşılıqlı əlaqə saxlayarkən bizə təqdim etdiyini digər fərdi məlumatlar.

*Biz avtomatlaşdırılmış metodlarla məlumatları toplayırıq*

Biz restoranlarımızı ziyarət edərkən, onlayn xidmətlərimizdən və ya restoran daxili texnologiyadan istifadə edərkən kompüter sisteminizdən və ya mobil cihazınızdan məlumatları toplamaq üçün avtomatlaşdırılmış texnologiyadan istifadə edə bilərik. Avtomatlaşdırılmış texnologiyaya cookie-lər, lokal paylaşılan obyektlər və veb-bikonlar daxil ola bilər. "Cookie" və digər texnologiyalar barədə 6-cı hissədə daha ətraflı məlumat verilir.

Biz sizin haqqınızda aşağıdakı məlumatları toplaya bilərik:
- internet protokol (IP) ünvanı;
- onlayn xidmətlərimizə və ya restoran daxili texnologiyaya daxil olduğunuz tarix və vaxt;
- onlayn xidmətlərimizdən istifadə edərkən saxlanılan faylın adı və URL ünvanı;
- kompüter və ya mobil cihazın əməliyyat sistemi və brauzer növü;
- mobil cihazın növü və onun parametrləri;
- mobil cihazınız üçün unikal cihaz identifikatoru (UDID) və ya mobil avadanlıq identifikatoru (MEID);
- cihaz və komponentlərin seriya nömrələri;
- reklam identifikatorları (məsələn, IDFA və IFA) və ya oxşar identifikatorlar;
- yönləndirən vebsayt (bizim sayta yönləndirən sayt) və ya tətbiqetmə;
- saytlarımızda və ya mobil tətbiqetmələrdə ziyarət etdiyiniz səhifələr kimi onlayn xidmətlərimizdən necə istifadə etdiyinizlə bağlı fəaliyyət.

Onlayn xidmətlərimiz və restoran daxili texnologiya GPS, Wi-Fi, Bluetooth kimi texnologiyadan və geoloksiyadan istifadə edərək mobil cihazınızın və ya kompüterinizin dəqiq yeri haqqında məlumatları toplaya bilər. Əksər mobil cihazlar və kompüter sistemləri üçün sizdən Şirkətin bu məlumatları emal etməsi üçün icazə verməyiniz istəniləcəkdir. Siz cihazın və ya veb-brauzerin parametrlərindən istifadə edərək bu məlumatları toplamaq üçün bizə verdiyiniz icazəni geri çəkə bilərsiniz. Sizin yeriniz barədə dəqiq məlumatları toplamağımızın qarşısını almaqla bağlı hər hansı sualınız yaranarsa, biz mobil cihaz xidməti provayderi, cihaz istehsalçısı və ya veb-brauzer provayderinizlə əlaqə saxlamağınızı tövsiyyə edirik. Bəzi onlayn xidmətlər və restoran daxili texnologiya yeriniz barədə məlumatlar olmadan düzgün qaydada işləməyə bilməz. Biz topladığımız yerinizi müəyyənləşdirə bilən məlumatları silməyimizi istədikdə, aşağıda verilən əlaqə məlumatlarından istifadə edərək Qlobal və ya Lokal məlumatların mühafizə ofisi ilə əlaqə saxlamağınızı xahiş edirik. Qanunvericiliyə uyğun olaraq biz müəyyən məlumatları saxlamalı olacayıq.

*Biz digər mənbələrdən məlumatları toplayırıq*
Biz digər şirkət və təşkilatlardan, o cümlədən dövlət verilən bazalarından, sosial media platformalarından və ya analitiklər və ya marketinq provayderləri kimi üçüncü tərəf tərəfdaşlardan məlumatları toplayırıq. Biz həmçinin ictimaiyyətə məlum olan məlumatları toplayırıq. Məsələn, siz sosial media vasitəsilə bizimlə qarşılıqlı əlaqə saxlayarkən profillərinizdən məlumatları toplaya bilərik. Biz həmçinin bizimlə kommunikasiyalardan və ya sosial mediada bizimlə bağlı kommunikasiyalardan məlumatları toplaya bilərik.
Biz sizin təqdim etdiyiniz məlumatları, avtomatlaşdırılmış metodlarla toplanılmış məlumatlar və digər mənbələrdən aldığımız məlumatları birləşdirə bilərik.

## 2. Biz topladığımız məlumatları necə istifadə edirik

Biz topladığımız məlumatları aşağıdakı yollarla istifadə edə bilərik.
Xidmətlərimizi təqdim etmək və sizinlə müqavilə bağlamaq üçün:

- məhsullarımız və xidmətlərimiz üçün sizin sorğularınızı, sifarişlərinizi yerinə yetirmək və ödənişlər etmək;
- sifarişləriniz, satınalmalarınız və ya bizdə olan hesablarınız, sorğularınız, suallarınız və rəyləriniz barədə sizinlə kommunikasiya qurmaq;
- vebsaytlarımız və ya mobil tətbiqetmələrimiz də daxil olmaqla, sizə onlayn xidmətlər təqdim etmək;
- xidmətlərimizlə bağlı şikayətlərinizə baxmaq da daxil olmaqla müştəri dəstək xidmətlərini göstərmək.

Sizə təqdim etmək, xidmətlərimizi yaxşılaşdırmaq və aşağıdakı əlavə qanuni biznes maraqları üçün:

- məhsul və xidmətlərimiz, fikrimizcə sizi maraqlandıra biləcək müsabiqələr, təkliflər, promoaksiyalar və ya xüsusi tədbirlər haqqında sizi məlumatlandırmaq;
- bizim biznes tərəfdaşlarımızın məhsul və xidmətləri haqqında sizi məlumatlandırmaq;
- restoranlarımızda və onlayn xidmətlərimizdə sizin təcrübənizi fərdiləşdirmək;
- biznesimizi idarə etmək, o cümlədən yeni məhsul və xidmətlər yaratmaq, müştəri və əməliyyatlar üzrə araşdırma aparmaq və satışların, marketinq və promoaksiyalar fəaliyyətimizin effektivliyini qiymətləndirmək;
- təcrübənizi fərdiləşdirmək, sizin maraqlarınıza uyğun məzunu çatdırmaq (o cümlədən reklam) və onlayn xidmətlərimizdən və ya mağaza daxili texnologiyalardan necə istifadə etdiyinizi öyrənmək, biznesimizi idarə etmək, texniki və xidmət problemlərini diaqnozlaşdırmağa kömək etmək, onlayn xidmətlərimizi və mağaza daxili texnologiyalarımızı idarə etmək, onlayn xidmətlərimizin istifadəçilərini müəyyənləşdirmək, fırıldaqçılığın qarşısını almaq məqsədilə cihazı müəyyən etmək, müştərilərimiz haqqında demoqrafik məlumatlar toplamaq və xidmətlərimizin istifadə cığırlarını müəyyən etmək üçün analitika və profil texnologiyasından istifadə etmək ;
- bizim məhsulları, təklfiləri, promoaksiyaları və onlayn xidmətləri və digər texnologiyanı saxlamaq, idarə etmək və inkişaf etdirmək ;
- bizim şəbəkə və sistemlərin təhlükəsizliyini təmin etmək.

Mövcud qanunvericiliyə uyğun hərəkət etmək üçün:

- fırıldaqçılıq və digər cinayətdən, iddialar və digər məsulliyyətləti müəyyən etmək, qorunmaq və qarşısını almaq;
- qanuni öhdəliklərə və bizim siyasətlərə əməl etmək;
- hüquqi iddialar qaldırmaq, həyata keçirmək və ya müdafiə etmək;
- uyğunluq məsələlərini izləmək və hesabat vermək.

Sizin razılığınız əsasında (mövcud qanunlarla tələb edildikdə), biz topladığımız məlumatları aşağıdakı məqsədlərlə istifadə edə bilərik:

- sizin marağınızda ola biləcək məhsul və xidmətlərimiz, müsabiqələr, təkliflər, promoaksiyalar və ya xüsusi tədbirlərlə bağlı sizə e-poçtlar və ya mesajlar göndərmək;
- bizim biznes tərəfdaşlarımızın məhsul və xidmətləri haqqında sizə e-poçtlar və ya mesajlar göndərmək;
- lokasiyaya əsaslanan xidmətlər göstərmək;
- 14 yaşına kimi uşaqlara onlayn xidmətlər göstərmək (valideyn razılığı olanda);
- cookie və digər oxşar texnologiyalardan istifadə etmək;
- bizim vebsaytlar və ya mobil tətbiqetmələr də daxil olmaqla sizə onlayn xidmətlər göstərmək.

Biz sizin haqqınızda topladığımız məlumatları başqa yollarla istifadə edə bilərik və həmin məlumatları topladığımız vaxt və ya bunun üçün sizin razılığınızı alarkən bu barədə sizi məlumatlandıracağıq.

### 3. Biz məlumatları necə paylaşırıq

Biz sizin fərdi məlumatlarınızı satmırıq və sizin məlumatlarınızı yalnız məxfilik bəyannaməsində göstərildiyi kimi paylaşırıq.
Biz sizin fərdi məlumatlarınızı Şirkət Ailəsi (McDonald's Ailəsi) daxilində paylaşa bilərik. Şirkət Ailəsinə McDonald's Korporasiyası, ona aid şirkətlər, törəmə müəssisələri və françayzalanlar daxildir. Ətraflı məlumatı və ya bu şirkətlərin siyahısını aşağıdakı keçiddən tapa bilərsiniz http://corporate.mcdonalds.com/content/corpmcd/about-us/around-the-world.html.
Bizdən məlumatı alan Şirkət Ailəsi üzvülərinin hazırkı məxfilik bəyannaməsində nəzərdə tutulandan başqa şəkildə məlumatları istifadə etmək və ya paylaşmaq səlahiyyəti yoxdur.
Biz sizin fərdi məlumatlarınızı bizə sifarişlərin yerinə yetirilməsi, məlumatların emalı və digər informasiya texnologiya xidmətləri, promoaksiyaların, müsabiqələrin, uduşların idarə edilməsi, araşdırma və təhlilin aparılması və Şirkətin müştəri təcrübələrinin fərdiləşdirilməsi kimi xidmətlər göstərən təchizatçılarla paylaşa bilərik. Biz bu təchizatçılara bu məlumatları bizim adımızdan xidmətlər göstərməkdən başqa məqsədlə istifadə etmələrinə və ya paylaşmalarına icazə vermirik.
Biz strateji və ya digər biznes səbəblərindən biznesimizin hamısını və ya bir hissəsini satmağa və ya ötürməyə qərar verə bilərik. Bu satışın və ya ötürülmənin bir hissəsi kimi biz topladığımız və saxladığımız məlumatları, o cümlədən fərdi məlumatları satışa və ya ötürülməyə cəlb edilən istənilən şəxsə ötürə bilərik.
Bəzi hallarda biz sizin kimliyinizi birbaşa müəyyənləşdirmədən məlumatları paylaşa bilərik. Məsələn, biz sizin onlayn xidmətlərinizdən istifadənizlə bağlı anonim, ümumiləşdirilmiş statistika paylaşa bilərik. Yaxud biz sizin haqqınızda məlumatları digər müştərilərimizlə birləşdirib, konkret müştəriyə aid olmayan şəkildə paylaşa bilərik.
Bizim fərdi məlumatları hər hansı qanun, qayda və ya hüquqi sorğunu icra etmək, onlayn xidmətlərimizi və restoran daxili texnologiyanı qorumaq, iddialar qaldırmaq və ya onlardan müdafiə olunmaq, şirkətimizin, əməkdaşlarımızın Şirkət Ailəsi və ya ictimaiyyətin üzvlərinin hüquqlarını, maraqlarını, təhlükəsizliyini qorumaq və ya fırıldaqçılıq və ya digər cinayət, yaxud bizim siyasətlərimizin pozulmalarını araşdırılması ilə bağlı zəruri olacaq həcmdə istifadə etmək və ya paylaşmaq hüququmuz var.

### 4. Uşaqların məxfiliyinin qorunması

Biz siz onlayn xidmətlərimizdən istifadə edərkən məxfiliyiniz qorumağın necə vacib olduğunu başa düşürük. Biz xüsusilə onlayn xidmətlərimizdən istifadə edən uşaqların məxfiliyinin qorunmasına diqqət yetiririk. Uşaqların məxfiliyini necə qoruduğuna dair ətraflı məlumat almaq üçün aşağıda *Uşaqların məxfiliyinin qorunması barədə* məlumatları nəzərdən keçirin.
Biz valideynləri uşaqlarının onlayn fəaliyyətini müntəzəm olaraq izləməyi və nəzarət etməyi tövsiyə edirik. Uşaqların məxfiliyinin qorunması təcrübəmizlə bağlı suallarınız yaranarsa, aşağıda verilən əlaqə məlumatlarından istifadə edərək Məlumatların Mühafizəsi üzrə Qlobal və ya Yerli ofisimizlə əlaqə saxlayın. Məlumatların mühafizəsi üzrə yerli ofislə əlaqə saxladıqda, müştərisi olduğunuz ölkənin ofisini seçməyiniz xahiş olunur.

### 5. Sizin seçimləriniz
*Marketinq kommunikasiyaları*
Siz bizdən marketinqlə bağlı kommunikasiyalar almağa razılaşmısınızsa, daha sonra sizə göndərdiyimiz marketinq kommunikasiyalarında abunəlikdən çıxmağa dair təlimatları izləməklə

abunəliyi ləğv edə bilərsiniz. Siz həmiçinin ümumilikdə istifadə etdiyiniz onlayn xidmətlərin profil bölməsində abunəliyi ləğv etmə ilə bağlı təlimatlarla birlikdə kommunikasiya seçimlərinizi nəzərdən keçirə bilərsiniz. Siz həmçinin cihazınızdan parametrlərindən istifadə edərək kommunikasiya seçimlərinizi dəyişdirə bilərsiniz. Siz həmçinin aşağıda verilən əlaqə məlumatlarından istifadə edərək Məlumatların Mühafizəsi üzrə Qlobal və ya Yerli ofisimizlə əlaqə saxlamaqla abunəlikdən çıxa bilərsiniz. Məlumatların mühafizəsi üzrə yerli ofislə əlaqə saxladıqda, müştərisi olduğunuz ölkənin ofisini seçməyiniz xahiş olunur.

Bizim tərəfimizdən göndərilən marketinq kommunikasiyalarından abunəlikdən çıxdıqda, biz hələ də sizin köçürmələriniz, bizdə olan hesablarınız, daxil olduğunuz müsabiqə və yarışlar barədə sizə bildirişlər göndərməyə davam edə bilərik. Bir növ kommunikasiya abunəliyinin ləğv edilməsi digər formaların da abunəliyinin ləğv edilməsi demək deyil. Məsələn, siz marketinq xarakterli e-poçtların abunəliyindən çıxmısınızsa, marketinq xarakterli mesajlara abunəsinizsə, onları almaqda davam edəcəksiniz.
Biz siz icazə vermədiyinizə qədər sizin fərdi məlumatlarınızı üçüncü tərəflərlə onların birbaşa marketinq məqsədləri üçün paylaşmırıq. Biz sizə bildiriş verdikdə və siz razılaşdıqda, biz siz təlimat verdiyiniz şəkildə sizin fərdi məlumatlarınızı paylaşacağıq.

*Sizin fərdi məlumatlarla bağlı hüquqlarınız*

Fiziki şəxslər topladığımız fərdi məlumatlara daxil olmaq, onlara düzəliş etmək, onları ötürmək, məhdudlaşdırmaq, silmək və onların emalına etiraz etmək hüquqları var. Fiziki şəxslər həmçinin fərdi məlumatların işlənilməsinə verdiyi razılığı geri çağırmaq hüququ var.

## 6. Onlayn xidmətlərdən və digər texnologiyadan istifadə [------]

Biz və bizə xidmətlər verən vendorlarımız təchizatçılarımız xidmətlərimizdə və onlayn reklam kimi biznesimizə bağlı digər sahələrdə məlumatları toplamaq və sizin sifariş verdiyiniz xidmətlər və ya məhsullarla təmin etmək üçün cookielər, veb-bikons  və digər oxşar texnologiyalardan istifadə edə bilərik.

*“Cookie”lər və digər texnologiyalar*
“Cookie” İnternet istifadəçisinin veb-brauzerinə və ya cihazına yerləşdirilən və istifadəçini xatırlmaq və/və ya onunla bağlı məlumatlar əldə etmək üçün istifadə edilən kiçik mətn faylıdır.
“Web beacon” internet səhifəsinə, aplikasiyaya və ya e-poçta birləşdirilən və fəaliyyəti izləmək üçün istifadə edilən kiçik obyekt və ya təsvirdir. Onlar bəzən piksellər və teqlər kimi də adlandırılır.

Aşağıdakıları nəzərə almağınız xahiş olunur:

- Onlyan xidmətlərimizdən istifadə edərkən sizin üçün “cookie” təyin edilə bilər.
- Bizim təklif etdiyimiz bəzi funksiyalardan yalnız “cookie”lər və digər oxşar texnologiyalardan istifadə etməklə yararlanmaq olar.
- Biz həm sessiya (ziyarətiniz ərzində), həm də daimi (təyin edilmiş müəyyən müddət ərzində) “cookie” və digər oxşar texnologiyalardan istifadə edə bilərik.
- Onlayn xidmətlərimiz və biznesimizlə əlaqəli digər sahələrdə “web beacon”lardan istifadə edə bilərik.

Biz cookie, veb-bikon və digər oxşar texnologiyadan hazırkı məxfilik bəyannaməsində təsvir edilən məqsədlərlə məlumatları toplamq üçün istifadə edirik. Biz həmçinin bu texnologiyalar vasitəsilə toplanılan məlumatları hazırkı məxfilik bəyannaməsində göstərilən digər vasitələrlə sizin haqqınızda toplanılan məlumatlarla birləşdirə bilərik.

Biz bu texnologiyalardan aşağıdakı məqsədlərlə istifadə edə bilərik:

- Sizi və sizin cihazınızı unikal şəkildə müəyyənləşdirmək;
- Onlar olmadan onlayn xidmətlərimizin lazımi qaydada işləmədiyi hallarda onlayn xidmətlərimizdən istifadə etməyinizi təmin etmək;
- Müvafiq olduqda, sistemin təhlükəsizliyini gücləndirmək;
- Vebsaytlarımızdan və mobil tətbiqlərimizdən istifadəni ölçmək üçün statistik məqsədlərlə;
- Məhsul və xidmətlərimizi təkmilləşdirmək;
- Onlayn xidmətlərimizin performans göstəricilərini (məs., traffik, xətalar, səhifənin yüklənmə vaxtı, populyar bölmələr və s.) izləməyimizə kömək etmək;
- Sizin rahatlığınız üçün vebsaytımızı ziyarət edərkən sizi xatırmaq;
- Təcrübənizi fərdiləşdirməyə kömək etmək;
- Hədəfli reklam fəaliyyəti ilə sizə reklam etmək;
- Hazırkı məxfilik bəyannaməsinin "Topladığımız məlumatları necə istifadə edirik" başlıqlı bölməsində göstərilən digər məqsədlər üçün.

Məsələn, biz sizin e-poçtu açıb-açmadığınızı, e-poçtda olan keçidə klik edib-etmədiyinizi, mobil tətbiqlərimizdə səhifələri və məzmunu necə istifadə etdiyinizi və ya Şirkətin onlayn reklamına klik edib-etmədiyiniz müəyyənləşdirmək üçün müəyyən texnologiyalardan istifadə edə bilərik. Biz və digərləri (reklam şəbəkələrimiz kimi) bu texnologiyalardan istifadə edərək təcrübənizi fərdiləşdirmək üçün onlayn xidmətlərimizdən istifadə edərkən üçüncü-tərəf vebsaytlar və cihazlardan onlayn fəaliyyətiniz ilə bağlı məlumat toplayırıq.

"Cookie" almaq istəmirsinizsə və ya "cookie" aldıqda veb-brauzerinizin sizə bildiriş verməsini istəyirsinizsə, veb-brauzerinizdə parametrləri tənzimləyin. "Cookie" seçimlərinizi necə dəyişə biləcəyinizi öyrənmək üçün brauzerinizin "Kömək" bölməsinə klikləyin. Siz bütün "cookie"ləri qeyri-aktiv etdiyiniz halda, vebsaytda mövcud olan bütün funksiyalardan istifadə edə bilmiyəcəksiniz.
Bəzi yeni veb-brauzerlərin "İzləmə" funksiyası mövcuddur ki, daxil olduğunu vebsaytlara fəaliyyətinizin izlənilməsini istəmədiyinizi göstərən "İzləmə" başlığını ötürür. Şirkət hal-hazırda vahid texnoloji standart hələ işlənilib-hazırlanmadığı üçün İzləmə siqnallarına cavab vermək üçün tədbirlər görmür. Biz yeni texnologiyaları izləyirik və standart yaradıldığı təqdirdə onu qəbul edə bilərik.

Onlayn xidmətlərimizdə video mövcud olduqda, biz baxdığınız videoları izləyə bilərik. Siz onlayn xidmətlər və ya üçüncü-tərəf sosial media vasitəsilə sizin video baxışınızı iki ilədək və ya qanunvericilikdə icazə verilən digər müddətədək və ya siz razılığınızı geri çağıranadək izləməyimizə razılıq verirsiniz.

*Hədəflənmiş reklam*

Onlayn xidmətlərimizdən istifadə edərkən, biz (və bizə xidmətlər verən təchizatçılarımız) sizə maraqlarınıza uyğun reklam təqdim edə bilməyiniz üçün sizin onlayn fəaliyyətinizlə bağlı məlumat toplaya bilərik.
Reklam şəbəkələrində iştirak etdiyimiz üçün digər vebsaytlarda müəyyən reklamlar görə bilərsiniz. Reklam şəbəkələri bizə sizin maraqlarınıza, sizinlə bağlı digər məlumatlara və kontekstual vasitələrə əsaslanaraq sizə göndərdiyimiz məlumatları hədəfləməyə imkan verir. Bu reklam şəbəkələri "cookie"lər, veb bikon və veb-server loqlarından istifadə edərək məlumat toplamaqla sizin onlayn fəaliyyətinizi izləməyə imkan verir. Reklam şəbəkələri bu məlumatları sizin maraqlandıran reklamları sizə göstərmək üçün istifadə edir. İştirak etdiyimiz reklam şəbəkələri müvafiq reklam şəbəkəsində iştirak edən vebsaytlara girişləriniz,

gördüyünüz səhifələr və ya reklamlar və vebsaytlardan necə istifadə etdiyinizə dair məlumat toplaya bilər. Biz bu məlumatları həm öz onlayn xidmətlərimizdə, həm də reklam şəbəkələrində iştirak edən üçüncü-tərəf vebsaytlarda sizin maraqlarınıza uyğun reklamlar göstərmək və marketinq fəaliyyətimizin nə dərəcədə effektiv olduğunu qiymətləndirməyə kömək etmək üçün istifadə edirik.

Siz www.aboutads.info/choices və ya www.networkadvertising.org/managing/opt_out.asp səhifəsinə daxil olaraq hədəflənmiş reklam fəaliyyətinə abunəliyi ləğv edə bilərsiniz. Abunəliyi ləğv etdiyiniz halda, siz reklamlar alacaqsınız, lakin onlar xüsusilə sizin maraqlarınıza uyğun olmayacaq.

## 7. Digər vebsaytlara və sosial mediaya keçidlər

Bizim onlayn xidmətlərimiz bizim tərəfimizdən deyil, üçüncü tərəflərin idarə etdiyi vebsaytlara keçidlər təklif edə bilər. Siz bu vebsaytlardan hər hansı birini ziyarət edərkən vebsaytın məxfilik siyasətini, şərt və müddəalarını və digər qaydalarını oxumalısınız. Biz üçüncü tərəflərin qaydaları və  hərəkərləri üçün məsuliyyət daşımırıq. Həmin təşkilatlara verdiyiniz istənilən məlumat onların məxfilik siyasətləri, şərt və müddəaları və digər qaydaları ilə tənzimlənir.

Bizim həmçinin onlayn xidmətlərimizdə Facebook "Bəyən" düymələri kimi digər tətbiqlər, alət provayderləri ola bilər və biz bu funksiyalardan necə istifadə etdiyinizə dair məlumatları toplamaq üçün avtomatlaşdırılmış üsullardan istifadə edə bilərik. Bu təşkilatlar sizin məlumatlarınızı özlərinin qaydalarına uyğun olaraq istifadə edə bilər.

## 8. Məlumatların təhlükəsizliyi

Biz sizin fərdi məlumatlarınızın təhlükəsizliyini təmin etmək üçün xüsusi olaraq hazırlanmış müvafiq tədbirlər görürük. Bizim texniki, təşkilati və
fiziki prosedurlarımız sizin fərdi məlumatlarınızı təsadüfi, qanunsuz və ya icazəsiz girişdən, açıqlamadan, istifadədən, dəyişiklikdən və ya məhv edilmədən qorumaq üçün işlənilib-hazırlanmışdır. İnformasiya sistemlərimizi qorumaq üçün səylərimizi əsirgəməməklə yanaşı qeyd etməliyik ki, heç bir vebsayt, mobil tətbiq, kompüter sistemi və ya İnternet və ya digər ictimai şəbəkə üzərindən ötürülən məlumatın təhlükəsizliyinə 100% zəmanət verilə bilməz.

## 9. Saxlanma müddəti

Biz sizin məlumatlarınızı hazırkı məxfilik bəyannaməsində qeyd edilən məqsədləri yerinə yetirmək və qeydlərin saxlanılmasına dair siyasətlərimizə əməl etmək üçün zəruri olan müddət qədər saxlayırıq (qanunvericiliklə daha uzun müddət tələb edilmədiyi müddətcə). Bizim qeydlər siyasətmiz qüvvədə olan qanunvericiliyi əks etdirir. Biz sizin məlumatlarınızı qanuni öhdəliklərimizə (məsələn, bizdən sizin məlumatlarınızı mövcud vergi/mənfəət haqqında qanunvericiliyinə əməl etmək üçün saxlamaq tələb edildikdə) əməl etmək, mübahisələri həll etmək, müqavilələrimizi icra etmək və hazırkı bəyannamədə başqa şəkildə təsvir edildiyi məqsədlər üçün zəruri olan həcmdə saxlayacaq və istifadə edəcəyik.

## 10. Məlumatların beynəlxalq ötürülməsi

Şirkət transsərhəd biznes prosesləri, idarəetmə strukturları və texniki sistemləri olan qlobal təşkilatının bir hissəsidir. Bu səbəbdən biz sizin haqqınızda məlumatları Şirkət Ailəsi daxilində paylaşa və yuxarıda qeyd edilən məqsədlər üçün istifadə etmək üçün biznes olan dünyanın digər ölkələrinə ötürə bilərik. Trabssərhəd məlumat ötürülmələri hazırkı məxfilik bəyannaməsinə və mövcud qanunvericiliyə uyğun olaraq aparılır.

Aşağıdakıları nəzərə almağınız xahiş olunur:

- McDonald's Korporasiyası fərdi məlumatları ona xidmətlər göstərən vendorlarla paylaşa bilər.
- McDonald's Korporasiyası fərdi məlumatları dövlət orqanlarının qanuni sorğularına cavab vermək, o cümlədən milli təhlükəsizlik və ya hüquq-mühafizə orqanlarının tələblərini qarşılamaq üçün açıqlaya bilər.
- Sizin McDonald's Korporasiyası tərəfindən alınan fərdi məlumatlara çıxış tələb etmək hüququnuz var və McDonald's Korporasiyası tərəfindən bu cür məlumatların istifadəsini və açıqlanmasını məhdudlaşdırmaq hüququnuz var. Bu hüququnuzdan istifadə etmək istəyirsinizsə, aşağıda göstərilən ünvan, telefon nömrəsi və ya e-poçt ünvanı vasitəsilə Şirkətlə əlaqə saxlamağınız xahiş edilir.

Şirkətin məxfiliyə dair qaydaları hazırkı məxfilik bəyannaməsində əks olunur. İstənilən vaxt onun məxfilik təcrübələri ilə bağlı suallarınız, narahatlığınız və ya şikayətləriniz yaranarsa, sadəcə aşağıda göstərilən ünvan, telefon nömrəsi və ya e-poçt ünvanı vasitəsilə Şirkətlə əlaqə saxlamağınız xahiş edilir. Siz həmçinin məlumatların mühafizəsi üzrə yerli qurumunuza şikayət verə bilərsiniz və Şirkət sizin şikayətinizi həll etmək üçün onlarla birlikdə işləyəcək.

Şirkət onun tərəfindən alınan fərdi məlumatlarınızla bağlı şikayətinizi həll edə bilmədikdə, sizin həll edilməmiş şikayətinizə dair iddianı Azərbaycan Respublikasının müvafiq məhkəməsinə təqdim etmək hüququnuz var.

Nəzərə alın ki, sözügedən proseslər yalnız hazırkı məxfilik bəyannaməsinə əsasən Şirkət tərəfindən alınan fərdi məlumatlarla bağlı mübahisələrin həllinə tətbiq edilir. Şirkətlə və ya Şirkət Ailəsinin üzvləri, agentlər, nümayəndələr, məmurlar, direktorlar və ya əməkdaşlarla olan bütün digər mübahisələr Şirkət Ailəsinin üzvü tərəfindən idarə edilən vebsayt, mobil tətbiq, e-poçt abunəlikləri və ya digər rəqəmsal əmlakın şərt və müddəalarına uyğun olaraq həll edilməlidir.

### 11. Məxfilik bəyannaməmizə dəyişikliklər

Hazırkı məxfilik bəyannaməsi bəyannaməsinin yuxarı hissəsində göstərilən tarixədək qüvvədədir. Biz vaxtaşırı olaraq hazırkı məxfilik bəyannaməsinə dəyişikliklər edə bilərik. Dəyişiklik edildikdə, biz düzəliş edilmiş versiyanı buraya yerləşdirəcək və sənədin yuxarısında göstərilən "son yenilənmə tarixi"ni dəyişəcəyik (tətbiq edildiyi tarixdən başlayaraq). Siz məxfilik bəyannaməsinin ən son yenilənmiş versiyası üçün müntəzəm olaraq saytı yoxlamalısınız.

### 12. Bizimlə necə əlaqə saxlaya bilərsiniz

Siz Şirkətin məxfilik təcrübələri ilə bağlı istənilən vaxt məlumatların mühafizəsi üzrə qlobal və yerli ofislərimizlə əlaqə saxlaya bilərsiniz. Məlumatların mühafizəsi üzrə yerli ofislərimiz sizə ölkəyə spesifik sorğular və ya məlumatlarla bağlı sizə kömək edə bilər. Əlaqə məlumattları:

*Məlumatların Mühafizəsi üzrə Yerli Ofisimiz*
McDonald's Azərbaycan MMC
Nizami 43
Səbail rayonu
Bakı, Azərbaycan
e-mail: gmal@mcdonalds.az

*Məlumatların Mühafizəsi üzrə Qlobal Ofisimiz*
Diqqət: Məlumatların Mühafizəsi üzrə Qlobal Ofis

Privacy at McDonald's, Dept. 282
110 North Carpenter Street
Chicago, IL 60607-2101, USA
contact.privacy@us.mcd.com

**Ölkə üzrə xüsusi məlumatlar**

**Azərbaycan**

Son yenilənmə tarix: 01.04.2019

*Məlumatların mühafizəsi üzrə nəzarətçi*
McDonald's Azərbaycan MMC
Nizami 43
Səbail rayonu
Bakı, Azərbaycan
e-mail: gmal@mcdonalds.az

fərdi məlumatlarınız üzrə nəzarət orqanıdır.

*Fərdi məlumatlarınızın işlənilməsi üçün hüquqi əsas*
Fərdi məlumatlarınız (i) sizin razılığınız, (ii) sizinlə bağlanılmış müqavilənin icrası üçün zərurilik və (iii) qanuni maraqlarımız əsasında emal edilir.

*Uşaqların məxfiliyinin qorunması barədə*

Vebsaytlarımızda biz rəngli kitablar və ya oyunlar kimi müxtəlif attraksionlar təklif edirik və bunlardan istifadə etmək üçün uşaqların fərdi məlumatlarını təqdim etməsi tələb edilmir. 14 yaşından aşağı uşaqlar fərdi məlumatlarını yalnız məhdud həcmdə və yalnız qanunla icazə verilən çərçivədə və ya valideynlərinin icazəsi ilə qeyd edə bilərlər. Yuxarıda qeyd edilən şərtlərə uyğun olaraq, biz uduşlarda iştirak etməsi üçün uşağın e-mail ünvanını qeyd edirik.

Onlayn oyunlarda iştirak edərkən Şirkət uşaqlardan müvafiq fəaliyyət iştirak etmək üçün tələb ediləndən və qanunla və ya valideyn tərəfindən icazə veriləndən başqa fərdi məlumat təqdim etməsini tələb etməyəcək.
Uşaqların fərdi məlumatları uşaqlar tərəfindən toplandığı üçün, onlar yalnız Şirkət və Şirkətə texniki və ya digər xidmətlər göstərən şirkətlər tərəfindən yuxarıda qeyd edilən mərhələlərin qanunla və ya valideyn tərəfindən icazə verilməsi şərti ilə istifadə ediləcək. Bu şirkətlər tərəfindən göstərilən xidmətlərə məsələn, bizim vebsaytların təkmilləşdirilməsi, sorğuların işlənilməsi daxildir. Bu fərdi məlumatlar üçüncü tərəflərə satılmır
Biz valideynlərdən müntəzəm olaraq uşaqlarının onlayn fəaliyyətiniz izləməyi və nəzarət etməyi xahiş edirik.

*Sizin fərdi məlumatlarla bağlı hüquqlarınız*
Fərdi məlumatlarınız üzrə hüquqlarınızla bağlı olaraq siz aşağıdakıları tələb edə bilərsiniz:

- Fərdi məlumatlarınızın işlənilməsi sizin razılığınızla aparılırsa, siz istənilən vaxt bu razılığınızı geri çağıra bilərsiniz; razılığın geri çağrılması razılıq geri çağrılmadan öncə onun əsasında məlumatların işlənilməsinin qanuniliyinə təsir göstərmir;
- Fərdi məlumatlarınıza çıxış tələb etmək və ya onların surətini əldə etmək;
- Fərdi məlumatlarınız strukturlaşdırılmış, ümumi istifadəyə uyğun və maşın tərəfindən oxunaqlı formatda əldə etmək və fərdi məlumatlarınızı bizə təqdim etdikdə və onlar sizin razılığınız

əsasında işlənildikdə və ya müqavilənin icrası üçün tələb edildiyi hallarda onları birbaşa başqa şirkətə ötürməyi bizdən tələb etmək;

- Fərdi məlumatlarınız düzgün olmadıqda və ya natamam olduqda onların düzəldilməsini tələb etmək;
- Sizin xüsusi vəziyyətinizlə bağlı səbəblərdən qanuni biznes marağımız əsasında fərdi məlumatlarınızı işləməyimizə, o cümlədən sizə marketinq xarakterli bildirişlərin göndərilməsinə etiraz etmək;
- Mövcud qanunla icazə verildiyi kimi fərdi məlumatların, ona keçidlərin, bu cür məlumatların surətinin silinməsini tələb etmək; məsələn, sizin fərdi məlumatlarınız köhnəldikdə, lazım olmadıqda, qanunsuz olduqda və ya razılıq əsasında fərdi məlumatlarınızın işlənilməsi üçün razılığı geri çağırdığınızda və ya fərdi məlumatlarınızın işlənilməsinə müvəffəq şəkildə etiraz etdiyinizdə;
- Fərdi məlumatlarınızın dəqiqliyi və ya fərdi məlumatlarınızın işlənilməsinin qanuniliyi və bizim bu məlumatları işlənilməsi üçün qanuni maraqlarımızla bağlı sorğunuza və ya məhkəmədə baxıldığı zaman ərzində fərdi məlumatlarınızın işlənilməsini məhdudlaşdırmaq;
- Bundan əlavə sizin istənilən vaxt fərdi məlumatlarınızın işlənilməsi üçün daha öncə verilmiş razılığınızı geri çağırmaq hüququnuz var.

Siz tələbiniz əsassız və ya təkrarlandığı üçün həddindən artıq olmadığı müddətcə bu hüquqlardan ödənişsiz olaraq istifadə edə bilərsiniz.
Hüquqlarınızdan istifadə etmək üçün verilən əlaqə məlumatlarından istifadə edərək məlumatların mühafizəsi üzrə Qlobal və Yerli ofislərimizlə əlaqə saxlamağınızı xahiş edirik. Siz hüquqlarınızı həmçinin Şirkətin hüquqlar mərkəzindən [keçid: corporate.mcdonalds.com/GDPRRightsCenter.com] istifadə edərək həyata keçirə bilərsiniz. Bəzi hallarda, mövcud qanunvericiliyinə əsasən hüquqlarınızı icra etməkdən imtina edə və ya məhdudlaşdıra bilərik. Şirkət sizə məlumat verməzdən və ya uyğunsuzluqları düzəltmədən öncə biz sizdən kimliyini təsdiq etməyi və/və ya tələbinizə cavab vermək üçün bizə kömək etmək üçün digər mətlumatları verməyi istəyə bilərik. Bütün hallarda sizin Məlumatların mühafizəsi üzrə səlahiyyətli quruma şikayət vermək hüququnuz var.

*Transsərhəd  məlumat ötürmələri*

Biz fərdi məlumatlarınızı digər ölkələrə ötürə bilərik. Bu kimi hallarda biz fərdi məlumatlarınızın adekvat səviyyədə mühafizəsini təmin etmək üçün bütün zəruri tədbirləri (məlumatların mühafizəsi barədə standart bəndləri kimi) görürük. Fərdi məlumatlarınızı transsərhəd ötürərəkən gördüyümüz təhlükəsizlik tədbirləri ilə bağlı suallarınız varsa və ya ötürdüyümüz fərdi məlumatların mühafizəsi üçün istifadə etdiyimi standart müqavilə bəndlərinin surətini əldə etmək istəyirsinizsə, verilən əlaqə məlumatlarından istifadə edərək Məlumatların mühafizəsi üzrə Qlobal və ya Yerli ofislərimizlə əlaqə saxlamağınız xahiş edilir.

Masada qulluq
Bizim restoranlarımızda siz sifarişinizin masasınıza gətirilməsi xidmətindən (masada qulluq) yararlana bilərsiniz. Bu səbəbdən bizim restoran heyəti sizi ötürücü (transmitter) ilə təmin edir və biz sifarişinizi yerinə yetirmək üçün həmin ötürücünün dəqiq yeri ilə bağlı məlumatları toplayırıq. Sizin sifariş prosesi ilə bağlı texniki tədbirlərlə bağlı sualınız yaranarsa, çəkinmədən gmal@mcdonalds.az vasitəsilə bizimlə əlaqə saxlayın.